# Qəbələdə XII Beynəlxalq "Veselo" Yumor və Musiqi Festivalı keçirilib

***Azərbaycanda ilk dəfə olaraq Qəbələ şəhərində XII Beynəlxalq "Veselo" Yumor və Musiqi Festivalı keçirilib.***

***"Gilan Holdinq"in təşkilatçılığı ilə yanvarın 5-dən 11-dək Heydər Əliyev Konqres Mərkəzi, "Qəbələnd" İstirahət-Əyləncə Mərkəzi və "Qafqaz Resorte" otelində davam edən festival zəngin və maraqlı proqrama malik olub.***



Festival çərçivəsində əvvəlcə "Qəbələnd" İstirahət və Əyləncə Mərkəzində "Safari" səhra velosipedi idman növü üzrə yarış keçirilib. Kişi, qadın və uşaqların iştirak etdiyi yarışda ilk 3 yeri tutan iştirakçılara hədiyyələr verilib.



Ukraynanın CİTA turizm şirkəti tərəfindən hər il turistlər üçün müxtəlif ölkələrə maraqlı və musiqili-əyləncəli səfərlər təşkil edilir. Şirkətin xətti ilə Qəbələyə Ukrayna, Belarus və Avropa ölkələrindən 1000-dən çox turist gəlib. Onlar Qəbələnin "Qafqaz" brendli beşulduzlu otellərində yerləşdiriliblər. İstirahət üçün Qəbələyə ailəvi gələn turistlər festival çərçivəsində keçirilən idman və əyləncəli proqramlarda, intellektual oyunlarda, axşamlar isə konsertlərdə və məzəli-əyləncəli proqramlarda iştirak ediblər. Bundan əlavə, festival müddətində idman yarışları, intellektual oyunlar, disko gecələr, kino günləri və digər tədbirlər təşkil olunub.

Turistlər Qəbələnin tarixi abidələri, görməli yerləri ilə də tanış olublar.

Vaxtanq Kikabidze, Diana Arbenina və "Nocnie Snayperi" qrupu, Vladimir Zelenski, Natalya Moqilevskaya və "Kvartal 95" yumor qrupu festivalın musiqili qonağı olub.

Qeyd edək ki, 2009-cu ildən keçirilən festival ilk dəfə Yunanıstanda, növbəti illərdə isə İordaniya, Birləşmiş Ərəb Əmirlikləri, Türkiyə və Ukraynada təşkil edilib.

**"Qəbələ"**

# Festivalın ilk konserti

***Yanvarın 6-da Qəbələ şəhərində keçirilən XII Beynəlxalq "Veselo" Yumor və Musiqi Festivalının ilk konserti olub.***

***Heydər Əliyev Konqres Mərkəzində təşkil edilən konsertdən əvvəl səhnəyə Ukraynanın tanınmış yumor aktyorları çıxıb.***

Gülüş ustaları zarafat dolu maraqlı söhbətləri ilə yerli və xarici tamaşaçıları güldürərək əyləndiriblər. Sonra Ukraynanın Xalq Artisti Nataliya Moqilevskayanın möhtəşəm konserti olub. Konsertdə Ukraynanın CİTA turizm şirkəti vasitəsilə Qəbələyə gələn Ukrayna, Belarus və Avropa ölkələrindən olan



1000-ə yaxın turist, eləcə də yerli musiqisevərlər iştirak edib. Bir sıra beynəlxalq müsabiqələrin laureatı, Ukrayna televiziyalarında musiqili verilişlərin aparıcısı və münsiflər heyətinin üzvü olan Nataliya Moqilevskaya onu məşhurlaşdıran hit mahnılarından "Я танцевала", "Лимоновый фонарь", "Любила", "Полюби меня такой" və digərlərini canlı ifa etməklə tamaşaçılara xoş anlar yaşadıb. İki saat davam edən konsert alqışlarla qarşılanıb.

**"Qəbələ"**

# "Kvartal-95" yumor qrupu çıxış edib

***Qəbələ şəhərində keçirilən XII Beynəlxalq "Veselo" Yumor və Musiqi Festivalı çərçivəsində "Kvartal-95" yumor qrupu yanvarın 7-də tamaşaçıların qarşısına zəngin konsert proqramı ilə çıxıb.***



Heydər Əliyev Konqres Mərkəzində Ukraynanın tanınmış yumor aktyoru Vladimir Zelenskinin rəhbərliyi ilə təqdim olunan konsertin tamaşaçıları arasında Ukrayna, Belarus, Rusiya və Avropa ölkələrindən 1000-ə yaxın turist, eləcə də yerli yumorsevərlər olub. Gülüş ustaları zarafat dolu maraqlı söhbətləri ilə tamaşaçıları güldürüb, xoş anlar yaşadıblar. İki saat davam edən konsert alqışlarla qarşılanıb.

**"Qəbələ"**

# Heydər Əliyev Mərkəzində

***31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Heydər Əliyev Mərkəzində təntənəli tədbir təşkil olunmuşdur. Tədbirdə rayon təhsil şöbəsinin, mərkəzləşdirilmiş kitabxana sisteminin işçiləri, Zarağan 1 nömrəli tam orta məktəbinin müəllim və şagird kollektivi, valideyinlər iştirak etmişlər.***



Tədbiri Heydər Əliyev Mərkəzinin direktoru




Zərxanım Ağayeva açaraq tədbir iştirakçılarını Dünya Azərbaycanlılarının Həmrəylik Günü, Yeni il münasibətilə təbrik etmişdir. O, çıxışında Heydər Əliyevin Azərbaycançılıq məfkurəsinin və vətənpərvərlik ideyalarının təbliği istiqamətində mərkəzin gördüyü işlərdən danışmışdır.

Rəsmi hissədən sonra Zarağan 1 nömrəli tam orta məktəbin hazirladığı əyləncəli konsert proqramı ilə tədbir davam etmişdir.

**Günel QAZIYEVA.**
**(foto) İlkin Vəlizadə,**